# Azərbaycan Heydər Əliyevin arzuladığı ölkəyə çevrilib

***Hər tarixi gün əsasən dövlətçiliklə bağlı olur. Bu baxımdan, xalqımızın tarixində xüsusi yer tutan günlər çox olub. O günləri tarixi şəxsiyyətlər tarixləşdiriblər. Belə tarixi şəxsiyyətlər tarixin axarını xalqın sabahına istiqamətləndirirlər. Bu, inkişaf, tərəqqi deməkdir.***

Xalqımızın tarixində belə günlər çox olub. Belə günlərdə xalqın gələcək müqəddəratını müəyyən edən mühüm başlanğıcların əsası qoyulur. Belə başlanğıclardan biri 1993-cü ilin 15 iyunudur. Milli Qurtuluş Günündə Azərbaycan dövlətçiliyi xilas edildi. Azərbaycan dövlətinin sabahını tarixin burulğanına atmaq istəyənlərin niyyətləri puç oldu.

Milli Qurtuluş Günü kimi tarixləşən 15 İyun ərəfəsində Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Azərbaycan dövlətçiliyi təhlükə qarşısında idi. Separatçılar dövləti parçalamağa çalışırdılar. Milli qarşıdurma yaranmışdı. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Bu, bütün xalqın yekdil qərarı idi. Onda xalq təkidlə böyük şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Bu, dövlətçiliyin xilası baxımından yeganə çıxış yolu idi.

Dövlət idarəçiliyində yol verilən nöqsanlar digər sahələrə də təsir göstərirdi. Ermənistan bundan bəhrələnməklə, havadarlarının hərbi köməyindən yararlanaraq Azərbaycanın torpaqlarını işğal edirdi. Belə bir vaxtda orduda da vəziyyət son dərəcədə xoşagəlməz idi. Ordu düşmən hücumlarının qarşısını almaqda çətinlik çəkirdi.

Xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi.

Ulu öndərin hakimiyyətə qayıdışı ilə ölkədə uzun illər davam edən gərginlik, milli qarşıdurma aradan qaldırıldı, dövlətçiliyimiz xilas edildi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı. Ona görə də 15 İyuna Milli Qurtuluş Günü deyildi. Bu gün həmin adla yaşadılır, həmin adla yaşayacaq.

Sonralar ümummilli lider Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: “Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı”.

Ümummilli liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız azərbaycançılıq ideyaları ətrafında birləşdi. Dünyanın böyük dövlətləri Azərbaycanla ikitərəfli, çoxtərəfli müqavilələr imzalamağa maraq göstərdi. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı.

“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”, – deyən ümummilli lider ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaratdı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başladı. Ulu öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, ölkənin iqtisadi inkişafı təmin edildi, ordunun formalaşdırılması ardıcıllıqla davam etdirildi, Azərbaycanın milli mənafelərini qorumağa qadir silahlı qüvvələr nizami ordu kimi həmin istiqamətdə formalaşdırıldı. Bu ordu Horadiz əməliyyatı kimi tarixləşən döyüşdə həmin istiqamətdə qələbəni təmin etdi. Qazanılan qələbə ordunun döyüş əzmini daha da yüksəltdi.

1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Ölkə daxilində yaranmış nisbi sabitlikdən, beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və etimad 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi”nin imzalanması və onun gerçəkləşdirilməsi ilə nəticələndi. Bu strategiyanın müəllifi böyük tarixi şəxsiyyət Heydər Əliyev idi. Bu müqavilə Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü idi. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu transmilli layihələrə Çini Avropa ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi əlavə edildi.



Həyatın bütün sahələrində tərəqqi və dirçəliş təmin edildi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, sarsılmaz və dönməz etdi. Bütün bunlar 1993-cü ilin 15 iyununun tarixi nailiyyətləridir. Ulu öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas edərək ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi.

Ölkənin ali qanunvericilik orqanı olan Milli Məclis xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq, Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyunu əbədiləşdirdi. 15 İyun – Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Ali Sovetin həmin tarixi qərarında deyilir: “Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, “ömrümün qalan hissəsini də xalqıma qurban verirəm” deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi”.

Azərbaycan xalqı 15 İyunu əziz bayram kimi qeyd etməklə yanaşı, həm də dövlətçiliyimizin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir. Ötən illərdə ümummilli liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü bir dövlətə çevrilmişdir. Bu illərdə Heydər Əliyevin gərgin zəhməti, əzmi və siyasi iradəsi sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə heyrət doğurur.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılıb. Bu, böyük tarixi şəxsiyyət Heydər Əliyevin tarixi xidmətlərinin nəticəsidir.

Azərbaycan Respublikasının milli qurtuluş yolu davam edir. Bu, Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir. Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdir: “Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz”. Bu inam, bu qətiyyət Milli Qurtuluş Gününün mahiyyətindədir.

Dünya siyasətçiləri də etiraf edirlər ki bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi ölkəyə çevrilib. Vətən müharibəsində zəfər qazandıq. İki ildir ki, Milli Qurtuluş Gününü əsl bayram ovqatı ilə qeyd edirik.

Ümummilli lider Heydər Əliyevin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiklərini yaxşı xatırlayıram: “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu – biz onlarsız yaşaya bilmərik”.

Bəli, bu gün ulu öndərin arzuladığı Azərbaycanda yaşayır və bununla da fəxr edirik.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***